Respublika.- 2019.- 1 may.- S.7



# Azərbaycanda "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi






**Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə "Azərbaycanda elektron məhkəmənin tətbiqi və inkişafı perspektivləri" mövzusuna həsr olunmuş ictimai təqdimat keçirilmişdir.**

Tədbiri **Ədliyyə nazirinin müavini Azər Cəfərov** giriş sözü ilə açaraq dedi ki, yaşadığımız texnoloji mühitə keçid dövründə elektron məhkəmənin tətbiqi sürətlə aktuallaşmağa başlamışdır. Məsələyə xüsusi diqqət yetirən cənab İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı ədliyyə və məhkəmə sisteminin inkişafında yeni mərhələ olmaqla bu sahədə islahatların müasir çağırışlara uyğun davam etdirilməsinə rəvac verib, o cümlədən elektron məhkəmənin tətbiqi ilə bağlı təşkilati işlərin yekunlaşdırılmasını, onun funksionallığının artırılmasını, fiziki və hüquqi şəxslərin bu sistemdən istifadəsinin təşviqini şərtləndirib.

Sonra "Elektron məhkəmə" informasiya sistemi üzrə İşçi Qrupun rəhbəri, hakim Ramin Qurbanov "Elektron məhkəmə" informasiya sisteminin innovativ imkanlarından, nazirliyin İnformasiya-kommunikasiya texnologiyaları idarəsinin rəisi Ağakərim Səmədzadə ədliyyə sahəsində tətbiq olunan yeniliklərdən, İcra baş idarəsinin elektron informasiya üzrə qrup rəhbəri Tural Məmmədov məhkəmə qərarlarının icrası işinin elektronlaşdırılmasından, İnformasiya texnologiyaları üzrə baş məsləhətçi, beynəlxalq ekspert Goran Edström elektron ədliyyə infrastrukturunda məlumat təhlükəsizliyi barədə danışdılar.

Tədbirdə qeyd olundu ki, dövlət başçısının 2014-cü il 13 fevral tarixli Sərəncamı ilə "Elektron məhkəmə" informasiya sisteminin yaradılması təsbit olunub və ötən dövrdə onun tətbiqi üzrə xarici mütəxəssislərin iştirakı ilə xeyli işlər görülüb. Hazırda sistem Naxçıvan Muxtar Respublikasını da əhatə etməklə ölkə məhkəmələrinin və icra qurumlarının əksəriyyətində tətbiq olunur. Bu sistem məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarlarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edir, çoxsaylı komponentlərdən ibarət olmaqla ən mürəkkəb mexanizmləri ehtiva edir, bu iş eyni zamanda uzun sürən prosesdir.

Azərbaycanda elektron məhkəmə sisteminin tətbiqi üzrə görülən işlər çərçivəsində sistemin mühüm komponentləri olan Məhkəmələrin vahid internet portalı, Elektron şəxsi kabinet, məhkəmə qərarlarının vahid bazası, elektron icra sistemi yaradılaraq fəaliyyət göstərir.

Vahid məhkəmə portalı fiziki və hüquqi şəxslərə məhkəmə sistemi barədə, o cümlədən ölkənin interaktiv xəritəsi şəklində müfəssəl məlumatlar təqdim edir. Vətəndaşlar bu portal vasitəsilə məhkəmələrin strukturu, növü, yurisdiksiyası, ünvanı və onlarla əlaqə yaratmaq üsulları - poçt və elektron ünvanları, telefon nömrələri, eləcə də hakimlərin təhsili və hüquq təcrübəsi barədə məlumatlar əldə edə bilirlər.

"Elektron şəxsi kabinet" vasitəsilə proses iştirakçıları elektron imza ilə təsdiqlənmiş elektron iddia ərizəsi və digər sənədlər vermək, məhkəmə proseslərini izləmək, təyin olunmuş proseslər barədə uzaqdan, yəni SMS, elektron məktub və digər üsullarla xəbər tuta, məhkəmə qərarlarını isə elektron formatda hakimin elektron imzası ilə əldə edə bilirlər. Fiziki və hüquqi şəxslərə bank kartlarının köməyi ilə "Şəxsi kabinet"də onlayn məhkəmə rüsumunu ödəmək imkanı yaradılıb.

Bununla yanaşı, icra orqanlarının fəaliyyətinin effektivliyinin artırılması, bu fəaliyyətdə operativliyin və şəffaflığın təmin olunması məqsədilə "Elektron icra" sistemi yaradılaraq tətbiq olunur. Sistem icra sənədlərinin elektron qeydiyyatını aparır, icra qurumları ilə məhkəmələr arasında kağızsız əlaqələrin qurulmasına, icra işinə elektron nəzarətin həyata keçirilməsinə, müxtəlif dövlət qurumlarının informasiya sistemləri ilə qarşılıqlı məlumat mübadiləsinin aparılmasına imkan verir.

Dövlət başçısının qanunvericilik təşəbbüsü ilə ötən ilin dekabrında Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və "Məhkəmələr və hakimlər haqqında" Qanununda dəyişikliklər edilərək iqtisadi mübahisələr üzrə işlərə kağızsız, elektron qaydada baxılmasına keçilib, hakim və sahibkarlar arasında münasibətlərin tamamilə elektron qaydada tənzimlənməsi təmin edilib.

Bu sahədə islahatlara və tətbiq olunan yeniliklərə həmçinin beynəlxalq marağın artmasını nəzərə alaraq, elektron məhkəmə sisteminin mötəbərliyini, effektivliyini, məhkəmələrin idarə olunmasında mühüm rolunu təlqin və təşviq etmək üçün ölkəmiz "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" layihəsi ilə Avropa Şurasının müsabiqəsində iştirak edib və nailiyyətlərimiz "Ədliyyənin Kristal Tərəzisi" mükafatına layiq görülüb.

Eyni zamanda, digər dövlətlərin nümayəndələri ölkəmizin bu sahədə təcrübəsi ilə tanış olur, mütəxəssislərimiz xarici ölkələrə səfərlər edərək elektron məhkəmə sisteminin tətbiqi təcrübəsini aşılayırlar.

Tədbirdə o da qeyd olundu ki, Azərbaycanda elektron məhkəmənin tətbiqi ədalət mühakiməsinə ictimai etimadı artırır, ona əlçatanlığı asanlaşdırır, vətəndaşların, o cümlədən sahibkarlıq subyektlərinin məhkəmələrə elektron qaydada onlayn rejimdə daha asan və rahat müraciət etməyə imkan verir, məhkəmə baxışını tezləşdirir, şəffaflığı təmin edir, süründürməçilik hallarının qarşısını alır.

Mütərəqqi beynəlxalq standartlar nəzərə alınaraq müasir məhkəmə və ədliyyə elektron infrastrukturunun qurulması, əsas və ehtiyat məlumat mərkəzlərinin yaradılması və məlumat təhlükəsizliyinin təmin olunması istiqamətində Dünya Bankı birgə mühüm işlər görülüb.

İnnovasiyalar ədliyyə sahəsində də geniş tətbiq olunmaqdadır. Notariat hərəkətlərinin rəsmiləşdirilməsini asanlaşdıran "Elektron notariat" informasiya sisteminin, məsafədən notariat xidmətlərinin göstərilməsinə imkan verən elektron ədliyyə köşkünün tətbiqi, notariusların xüsusi səyyar çantası, mobil notariat proqram təminatı və digər yeniliklər vətəndaşlara xidmət sahəsindəki yeniliklərdəndir.

Tədbirdə nazirliyin rəhbərliyi, Prezident Administrasiyasının məsul nümayəndələri, Milli Məclisin deputatları, hakimlər, dövlət ittihamçıları və vəkillər, ictimai xadimlər, Ədliyyə naziri yanında İctimai Komitənin üzvləri və digər vətəndaş cəmiyyətinin təmsilçiləri, çoxsaylı KİV rəhbərləri, blogerlər, alimlər və tələbələr iştirak edirdilər.

İctimai təqdimatın sonunda mövzu ətrafında müzakirələr aparıldı, iştirakçıları maraqlandıran suallar ətraflı və dolğun cavablandırıldı.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**